# Yeni dil öyrənməklə bağlı məsləhətlər

## 1 SƏBƏBİNİ AYDINLAŞDIR

*«Yeni dil öyrənmək istəyinin səbəblərini yaz və həvəsdən düşəndə bu səbəbləri nəzərdən keçir» (Serina).*

**Hansı dili öyrənmək istəyirsən və nəyə görə?**

**Dil:**

**Səbəb(lər):**



## 2 KÖMƏK İSTƏ

*«İspan dilini öyrənəndə köməyimə bu dili mənim kimi yeni öyrənən dostlarım çatırdı. Biz bu işdə bir-birimizə çox dəstək olurduq. Mən onlardan hansı çətinliklərlə üzləşdiklərini və onların öhdəsindən necə gəldiklərini soruşurdum» (Helena).*

**Çətinliklərlə üzləşəndə sənə kömək edə biləcək adamların adlarını yaz.**



**«Çox çalışmasan, yeni dili yaxşı öyrənə bilməzsən» (Kristofer).**



www.jw.org © 2016 Watch Tower Bible and Tract Society of Pennsylvania

# 3 HƏVƏSDƏN DÜŞMƏ



*«Bir gün yeni dili artıq bildiyini düşünürsən, o biri gün isə heç nə bilmədiyini» (Vivian).*

**Qarşına kiçik məqsədlər qoy ki, onlara asanlıqla çata biləsən və həvəsdən düşməyəsən.**

**«Əgər başqaları dili səndən daha tez öyrənirsə, ruhdan düşmə. Hər kəsin qavrama qabiliyyəti fərqlidir» (Tomas).**

# 4 HƏR GÜN MƏŞQ ET

*«Çox çalışsan, dili tez öyrənəcəksən, az çalışsan, gec» (Daniel).*

**Yeni dil öyrənmək üçün hər gün nə qədər vaxt ayıra biləcəyini aşağıda yaz.**

| Bazar ertəsi | Çərşənbə axşamı | Çərşənbə | Cümə axşamı | Cümə | Şənbə | Bazar |
|---|---|---|---|---|---|---|
| | | | | | | |



www.jw.org © 2016 Watch Tower Bible and Tract Society of Pennsylvania

# 5 MƏDƏNİYYƏTİ ÖYRƏN



Öyrəndiyin dilin mədəniyyətini də öyrənməyə sənə nə kömək edə bilər?

*«Dilini öyrəndiyim xalqın mədəniyyətini də öyrənirəm. Onların nəyi necə etdiyinə diqqət yetirirəm. Onların yeməklərini dadıram, musiqilərinə qulaq asıram. Dili mənimsəmək üçün təkcə dilin özünü öyrənməkdən əlavə öyrəniləsi o qədər şey var ki!» (Aleksis).*

# 6 HƏMİN ÖLKƏYƏ SƏYAHƏT ET

*«Biz səkkiz ay Çilidə yaşadıq. Hər yerdə ispan dilini eşidirdik deyə, onu öyrənmək daha asan oldu» (Nataşa).*



Hansı ölkəyə getmək istədiyini yaz.

**«Əgər hansısa dili yaxşı öyrənmək istəyirsənsə, həmin dildə oxumalı, yazmalı, danışmalı və qulaq asmalısan» (Alisan).**

Başqa ölkəyə gedə bilməsən də, elə bir yerə gedə bilərsən ki, ətrafında öyrəndiyin dildə danışan insanlar olsun.



www.jw.org © 2016 Watch Tower Bible and Tract Society of Pennsylvania